**MƏDƏNİYYƏT DÜNYASI**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XXXXIV buraxılış, Bakı, 2023
**МИР КУЛЬТУРЫ**
*Азербайджанский Государственный Университет Культуры и Искусств, XXXXIV выпуск, Баку, 2023*
**THE WORLD OF CULTURE**
*Azerbaijan State University of Culture and Art, XXXXIV edition, Baku, 2023*

**UOT 73/76.**
**DOI: 10.52094/3005-9941.44.2023.0156**

**Ceyhun Yaşar oğlu Səmədov**
**Azərbaycan Memarlıq və İnşaat Universiteti**
**Sənətşünaslıq üzrə fəlsəfə doktoru**

# ÜSLUB AXTARIŞLARININ ESTETİKASI

**Xülasə:** Məqalə tanınmış Azərbaycan rəngkarı, respublikanın Əməkdar rəssamı Faiq Ağayevin (1943) yaradıcılğına həsr olunmuşdur. Yaradıcılığı bütün janrları əhatə edən rəssamın gerçəkliyə bədii münasibəti onun müxtəlif üslub və cərəyanlara yanaşması nəticəsində üzə çıxmışdır. Onun müxtəlif janrlı əsərlərinin həm realizm, həm də kubizm cərəyanı ilə anım yaradan nəticələrində müəllif özünəməxsusluğunu görmək mümkündür. Bu bədii xüsusiyyətlər özünü əsərlərin kompozisiya, forma-biçim və rəng həllində yaddaqalan tərzdə göstərmişdir.

**Açar sözlər:** üslub, rəngkarlıq, natürmort, stilizə, realist, cizgi, ovqat

Azərbaycan rəngkarlığının duyulası cəlbediciliyini şərtləndirən səbəblərdən birinin qədim tarixə malik olan bu bədii saxlancın müəlliflərinin müxtəlif janrlı əsərlərində bir-birindən fərqli ifadə tərzi nümayiş etdirmələri olmuşdur. Bu forma-biçim özünəməxsusluğu özünü orta əsrlərdə əsasən miniatür üslubu ilə təsdiqləmişdisə, XIX əsrin sonu və bütün XX əsr boyu isə rəssamların özünüifadəsi üçün daha geniş şərait yaranmışdı. Heç şübhəsiz, 1920-ci ildə Bakıda ilk rəssamlıq məktəbinin açılması və tələbələrin zamanın tələblərinə cavab verən bədii cərəyan və üslublarla tanışlığı onların bədii-texniki axtarış imkanlarının nəhayətsizliyini şərtləndirmişdi. Bununla belə rəssamların fərdi və digərlərindən fərqli özünüifadəsi elə də asan deyildi. Belə ki, keçmiş SSRİ məkanındakı xüsusi təhsil ocaqlarında yalnız "sosialist realizmi" bədii prinsipinin aparıcı hesab olunmasının qarşılığında, müxtəlif yaşlı rəngkarların müxtəlif janrlı əsərlərinin ifadə tərzində bir-birinə yaxınlıq duyulmaqda idi. İncəsənət məkanının ideoloqları yaradıcılar arasında dəst-xətt müxtəlifliyinə rəsmi qadağalar qoymasalar da, bəzi hallarda gənclərin Avropa təsviri sənəti nümunələri ilə səsləşən ifadələri, xüsusilə də onların milli qaynaqlara qayıdış cəhdləri dolayısı təpkilərlə qarşılanırdı. Odur ki, Azərbaycan rəngkarlığının İkinci Dünya savaşına qədərki mənzərəsində duyulası ifadə fərqinə demək olar ki, rast gəlmək mümkünsüz idi. Yalnız qələbə ilə başa çatan müharibədən sonra SSRİ-nin mərkəzi şəhərlərində ali təhsil alıb Bakıya dönən gənc rəssamların yaradıcılıq axtarışlarında başqalarından fərqlənmək istəyi qabarıq görünməkdə idi. Bu tendensiya ötən əsrin son qərinəsində daha da genişləndi. Belə ki, yaradıcılıq axtarışlarını yalnız "sosialist realizmi"nin tələbləri çərçivəsində gerçəkləşdirməklə, sənət meydanında uğur qazanmaq çox çətin idi. Elə bu səbəbdən də respublikada təşkil olunan hər yeni sərgidə müxtəlif yaşlı rəngkarların ifadə tərzlərində özünəməxsusluq nümayiş etdirmə səyləri getdikcə çoxalmaqda idi. Ötən əsrin

yetmişinci illərində böyük sənətdə ilk addımlarını atan Faiq Ağayevin (1943) əsərlərində də təhsil illərində qazandığı bilik və vərdişləri fərqli bədii tutumda gerçəkləşdirmək istəyi qabarıq duyulurdu.

Əvvəlcə Bakıdakı Ə.Əzimzadə adına Azərbaycan Dövlət rəssamlıq məktəbində (1959-1964), sonra isə Moskvadakı V.Surikov adına Rəssamlıq İnstitutunda (1964-1970) təhsil alan Faiq Ağayev elə diplom əsəri ilə rəngkarlıq məkanına istedadlı bir rəngkarın gəldiyini təsdiqləmiş oldu. Təhsil sonrası peşəkarlığını SSRİ Rəssamlıq Akademiyasının Bakıda fəaliyyət göstərən Yaradıcılıq emalatxanasında akademik Mikayıl Abdullayevin rəhbərliyi altında daha da təkmilləşdirən (1972-1974) gənc rəssam, çox tezliklə yaddaqalan sənət uğurlarına imza atmış oldu. 1972-ci ildə ərsəyə süjetli "Balıqçının ailəsi" tablosunun SSRİ Rəssamlıq Akademiyasının diplomuna layiq görülməsi də onun monumental rəngkarlıq əsəri yaratmaq sahəsində zəngin potensiala malik olduğunu göstərdi.

Faiq Ağayevin balıqçı əməyi ilə yaxından tanışlığı bundan sonra ona bu mövzuda daha bir neçə əsər yaratmağa imkan verdi. Bunların sırasında "Balıqçı qadınlar" (1977), "Axşam. Torların təmiri" (1979), "Balıqçı" (1980), "Azərbaycan qadınları"(1982) və s. əsərlərin adını çəkmək olar. Rəssamın "Axşam. Torların təmiri" tablosuna görə 1979-cu ildə Ümumittifaq Gənclər Təşkilatı, SSRİ Mədəniyyət Nazirliyi və SSRİ Rəssamlar İttifaqının həvəsləndirici mükafatını alması isə müəllifin süjetli tablolar yaratmaq sahəsində fərdi estetika sərgiləyə bilmək bacarığını əyaniləşdirmiş oldu. Heç şübhəsiz, sadaladığımız bu uğurlar yaradıcılığa yenicə başlayan gənc rəssam üçün təkanverici oldu və onu yeni-yeni axtarışları səslədi. Başqa sözlə desək, adlarını çəkdiyimiz əsərlərin bədii həllində daha çox "sərt üslub"un estetikasına tapınan Faiq Ağayev, artıq onu əhatələyən gerçəkliyə münasibətini fərqli bədii yanaşma ilə ifadə etməyə qərarlaşdırmışdı. Onun 1987-ci ildə Bakıda açılan fərdi sərgisi rəssam axtarışlarının nümayişi oldu. Müəllif tərəfindən eksperimentlər toplusu kimi düşünülən bu bədii hesabatı yalnız natürmort janrında çəkilmiş işlərdən təşkil olunmuşdu. İlk dəfə idi ki, Azərbaycan bədii məkanı bu cür təqdimatla qarşılaşırdı. Odur ki, maraqla qarşılanan sərgi həm də həmkarları arasında duyulası mükalimə obyektinə çevrilmişdi. Bunu şərtləndirən səbəblərdən bəlkə də birincisi rəssamın çoxlarına lazımsız-gərəksiz görünən əşyaların forma-biçiminin özünəməxsus estetika ilə təqdimatı hesab oluna bilərdi. Doğrudan da müxtəlif formalı saxsı və gil qabların gah bütöv, daha çox isə paralanmış halda kompozisiyanın məna-məzmun daşıyıcılığına çevrilməsi Azərbaycan rəngkarlığı üçün yeni sayıla bilərdi. Düzdür, natürmortların bədii şərhində məşhur italyan rəssamı C.Morandinin bu janrda ərsəyə gətirdiyi əsərlərlə anım yarada biləcək məqamların işartıları duyulurdu. Burada primitiv sənətin estetikasına müraciətin əlamətlərini də görmək mümkün idi. Amma bununla belə, bir müddət Azərbaycan bədii məkanında Faiq Ağayevin "tanınma nişanı"na çevrildi. Bu natürmortlar bir tərəfdən əşyaların "cansız"lığının ifadəsi olsa da, digər tərəfdən sakitliyə bələnmiş məkanda qərarlaşmış əşyaların yığcam rənglərlə

estetikasının təqdimatı idi. Əslində, elə məna-məzmun daşıyıcısına çevrilmiş bu "gərəksiz" əşyaların bilavasitə qabardılmış görüntüsündə onlardakı ilk baxışda hiss olunmayan gözəllik qaynaqlarını görmək olardı. Bir çox hallarda paralanmışlığı danılmaz olan saxsı hissələrinin dominantlığında artıq onların düşündürücülüyünü də görmək mümkün idi. Bu natürmortların müxtəlif konfiqurasiyalı əşyalarının zərif-lakonik yaxılarla ifadəsinin ovqat yaradıcılığa xidmət etməsini də müəllifin janrın estetikasına yeni çalarlar qatma istəyinin nəticəsi hesab etmək olar. Elə bu qədər sadə əşyaların mənalandırılması baxımından da müəllifin natürmortlarının özünəməxsusluğu danılmazdır. Başqa sözlə desək, müxtəlif əşyalara yönəlik "Faiq Ağayev baxışı"nda Azərbaycan natürmortunun ənənəviləşən estetikasını daha zənginləşdirmək istəyi duyulmaqdadır. Əslində, rəqabətli sənət məkanında bir janrın ifadə imkanları çərçivəsində özünü başqalarına tanıtması həm də onun yaradıcı uğuru hesab olunmalıdır.

Bu yerdə deyək ki, onun təsviri sənət sahəsində müstəqil yaradıcı və pedaqoji fəaliyyətinin yüksək dəyərləndirilməsi və rəssamın 1992-ci ildə "Azərbaycan Respublikasının Əməkdar rəssamı" fəxri adına layiq görülməsindən sonra onun həyatında yeni mərhələnin başlanğıcını qoymuş oldu. Daha dəqiq desək, onun 1996-cı ildən qardaş Türkiyə Respublikasında – Uludağ Universitetinin (Bursa şəhəri) "Rəssamlıq" fakültəsində dərs deməyə dəvət olunması həm də onun yaradıcılığında ən müxtəlif janrlarda əsərlərin yaradılmasını şərtləndirdi. Bu da Azərbaycan sənətsevərləri arasında daha çox "sakit"liyin özünəməxsus tərənnümçüsü kimi tanınan rəssamın digər janrlara yaradıcı münasibətini sərgiləmiş oldu. Bu mənada Faiq Ağayev yaradıcılığının kifayət qədər səmərəli və məhsuldar keçən "Türkiyə mərhələsi"ni həm də onun milli rəngkarlıq saxlancına yaddaqalan töhfə hesab etmək mümkündür.

Yuxarıda qeyd etdiklərimizə əlavə olaraq demək lazımdır ki, Azərbaycanlı rəssamın özünü o qədər də yad hesab etmədiyi "mühacirət dövrü" janr rəngarəngliyi ilə yanaşı, həm də gerçəkliyə, onu təşkil edənlərə bədii yanaşmanın duyulası dərəcədə fərqli olması ilə diqqət çəkir. Mövcud mütərəqqi üslub və cərəyanlara tapınmaqla görünənlərə daha çox analitik münasibət göstərən müəllif, kətan üzərindən "boylanan" rəng qatının cəlbedici-ritmli bədii tutumu ilə kubizmin məlum estetikasına əvvəlkilərdən fərqli çalarlar əlavə etməyə nail olmuşdur. Əgər bu çoxsaylı əsərlərin janr müxtəlifliyinə fərdi müəllif yanaşmalarını dəyərləndirməli olsaq, onda onun son qərinədə ərsəyə gətirilmiş həmin rəngkarlıq nümunələrində realizmdən başlayaraq mücərrədçiliyə qədər dəyişən ifadə tərzində məna-məzmun tutumunun bir-birindən fərqli ovqat yaradıcılığına bələndiyini deməliyik. Heç şübhəsiz, bunu şərtləndirən başlıca səbəb rəssamın müxtəlif cərəyanlardan qaynaqlanan estetikanı öz duyğuları ilə qoşalaşdırmaqla təqdim etməsi olmuşdur. Bu məziyyətləri onun müxtəlif illərdə yaratdığı portretlərdə axtarmalı olsaq, müxtəlif yaşlı və xarakterli insanları özündə hifz edən bu əsərlərdə obyektlərə yanaşmanın təzadlı ifadəsini görə bilərik. Zamanın axarında onu əhatə edən insanlara diqqətlə

göz qoyan rəssam, həmin əsərlərində daha çox səciyyəvi xüsusiyyətlərə malik olan insanlarla ünsiyyət qurmağa üstünlük vermişdir. Bu mənada əgər "Ata və oğul" (2006) və "Həyat yoldaşımın portreti" (2009) əsərlərində obyektlərə gerçəkçi münasibət mövcuddursa, "Avtoportret" (2005,2009), "Müəllim" (2006) və "Yelpikli qadın" portretlərində isə bədii stilizələrə üstünlük verildiyini müşahidə etmək mümkündür. Başqa sözlə desək, bu əsərlərdə bədii yozum daha çox müəllifin qarşısına qoyduğu yaradıcı vəzifələrə müvafiq olmaqla, müxtəlif yaşlı insanların bələndiyi hiss və duyğuların qabardılmasına yönəldilmişdir.

Rəssamın süjetli tabloları isə məna-məzmun yükünün şərti-obrazlı ifadəsi ilə diqqət çəkir. Bu mənada onun Azərbaycan muğamlarına həsr etdiyi silsilənin adını vurğulamaq olar. Yeri gəlmişkən qeyd edək ki, milli musiqimizə bu cür bədii münasibətə rəngkarlığımızda ilk dəfədir ki, rast gəlinir. Faiq Ağayevin "Bayatı-Türk" (2007), "Orta Mahur" (2009), "Segah-Zabul" (2007), "Zil Zabul" (2006), "Şur" (2007), "Qarabağ şikəstəsi" (2009), "Mahur-hindi" (2012) və s. lövhələrindəki musiqiyə müəllif bələdçiliyini və vurğunluğunu duymaq o qədər də çətin deyil. Muğamların ovqat yaradıcılığını incəliklə hiss edən rəssamın musiqinin zilli-bəmli ruhunu ustalıqla rənglərlə ifadə etməyi bacarmışdır. Kompozisiyaların irili-xırdalı ayrıntılarında görünənləri isə əslində müəllifin fərdi yaşantılarının cəlbedici və düşündürücü ifadəsi hesab etmək mümkündür.

Faiq Ağayevin digər mövzuları özündə hifz edən süjetli kompozisiyaları da bədii şərhlərinə görə maraq doğurur. Müəllifin "Musiqiçi qız" (2007), "İmtahana hazırlıq" (2009), "Sarı gəlin" (2007), "Məhəbbət" (2009). "Şam işığında" (2009), "Əsgər məktubu" (2010) və digər neçə-neçə əsərində həsrət və vüsalın ifadəsi ilə gerçəkləşən ideya həm də lirik-psixoloji yükə bələndiyindən kifayət qədər düşündürücü qəbul olunurlar.

Rəssam yaradıcılığının "Türkiyə mərhələsi"ndə natürmort janrına müraciətini davam etdirmiş, onu əhatə edən əşyalar aləminə həm realistik, həm də analitik yanaşmasını davam etdirmişdir. Onun "Atatürk çiçəyi" (2005), "Lalələr" (2003), "Tərəvəzlər" (2009), "Saxsı qablar" (2010) və s. natürmortlarında əşya "cansız"lığına gerçəkçi-şərti verilən bədii yozumda janrın məlum estetikasına özünəməxsus çalarlar əlavə etmək istəyi duyulmaqdadır.

Faiq Ağayevin təxəyyül genişliyini və yüksək ifadə sənətkarlığını onun bütün yaradıcılığı boyu ərsəyə gətirdiyi qrafik irsində də müşahidə etmək mümkündür. Bu əsərlərində nümayiş etdirdiyi icra mədəniyyəti, forma-biçim özünəməxsusluğu, deformasiya və cizgi oynaqlığı onun qrafikasını səciyyələndirən xüsusiyyətlərdir.

Bütünlükdə, yaratdıqları ilə XX-XXI əsr Azərbaycan təsviri sənətini layiqli töhfələrlə zənginləşdirdiyini təsdiqləyən Faiq Ağayevin bədii irsi özündə yüksək bədii dəyərləri hifz edən mənəvi qaynaq kimi qəbul olunmaqdadır. Onun həm rəngkarlıq, həm də qrafika əsərləri dünyanın müxtəlif ölkələrində uğurla nümayiş etdirilməklə, duyulası tamaşaçı rəğbəti qazanmışdır.

**Açar sözlər:** üslub, rəngkarlıq, natürmort, stilizə, realist, cizgi, ovqat

## Ədəbiyyat siyahısı:

1. Ağayev F. Albom. İstanbul. 276 s.
2. Azərbaycan incəsənəti. / Müəl. heyəti: K.Kərimov, R.Əfəndiyev, N.Rzayev, N.Həbibov. – Bakı: İşıq.– 1992. – 334 s.
3. Əliyev, Z. Azərbaycan incəsənəti [3 cilddə] / Z.Əliyev, A.Xəlilov – Bakı – 2011, II-III cildlər – s.142.
4. Əliyev, Z. «Miniatür üslubunun yaranma tarixindən». Mədəniyyət.az jurnalı, 2018 (317),Yanvar-Fevral. s.92-94
5. Verdiyev, Ə. Dəzgah rəngkarlığı / Ə.Verdiyev – Bakı –1988. 180 s.

**Джейхун Яшар оглы Самадов**

## Эстетика стилевых поисков

**Рэзюме:** Статья посвящена творчеству известного азербайджанского живописца, заслуженного художника республики Фаига Агаева (1943). Художественный мироощущение художника, творчество которого охватывает все жанры, проявилось в результате его подхода к различным стилям и направлениям. Оригинальность автора можно увидеть в результатах его произведений различных жанров, напоминающих как направления реализма, так и кубизма. Эти художественные особенности ярко проявились в композиции, форме и цветовом решении произведений.

**Ключевые слова:** стиль, живопись, натюрморт, стилизация, реалистический, штрих, экспрессивный

**Jeyhun Yashar oghlu Samadov**

## Aesthetics of style searches

**Summary:** The article is dedicated to the work of the well-known Azerbaijani painter, Honored Artist of the Republic Faig Aghayev (1943). The artistic attitude of the artist, whose creativity covers all genres, was revealed as a result of his approach to different styles and trends. It is possible to see the originality of the author in the results of his works of various genres, which are reminiscent of both realism and cubism trends. These artistic features showed themselves in a memorable way in the composition, form and color solution of the works.

**Key words:** style, painting, still life, stylized, realistic, animated, expressive

**Məqalənin redaksiyaya daxil olma tarixi: 15.08.2023**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Aslan Xəlilov**